

Fədai Qaraxanlı



## Bu qış

Havadan nə gözəl qar ətri gəlir,
Gözəllik éləyir düzlərə bu qış.
Buluddan sökülür qar dənələri,
Bərəkət diləyir bizlərə bu qış.

Göylərdən ellərə bəyaz nur yağır,
Quşbaşı dənəsi yaman gur yağır.
Küləklə sovrulur gurhagur yağır,
Sevinclər çiləyir gözlərə bu qış.

Təbiət saflığın bəxş edir bizə,
Ağ örpək salınır çöllərə, düzə.
Şaxtanın, soyuğu xoş gəlir üzə,
Təravət üfləyir üzlərə bu qış.

Qarın qalınlığı meşəni bəzər,
Kolların özü də komaya bənzər.
Ovçular sevinib çölləri gəzər,
Çox ümid eyləyir izlərə bu qış.

Naxışla yazılır şaxtanın izi,
Qayadan sallanır buzların bizi.
Dağların soyuğu üşüdür dizi,
Hərəkət istəyir dizlərə bu qış.

Qarın gözəlliyin duyasan səhər,
Gəzəsən doyunca qalmaya təhər.
Çatasan sonunda evə birtəhər,
Gülüşlər ələyir sözlərə bu qış.

Qış axşamı gözəl olur istidə,
Ocaq yanır, ətir verir tüstü də.
Məst oluram, uyqu gəlir istidə,
Nağıllar söyləyir bizlərə bu qış.

## Süzək biz

Ət götürək, gəlin çölə yollanaq,
Şişə taxıb köz üstünə düzək biz.
Kilim salaq, yastıqlara yan verək,
Kürdə üzən qağayını süzək biz.

Odun vurun, qazan möhkəm qaynasın,
Ət qarışsın, soğan köpsün, oynasın.
Ət suyunda, su ətində qay nasın,
Bozartmanın bu suyundan süzək biz.

Ocaq yansın, isti vursun üzümə,
Mənə xoşdu, tüstü gəlsin gözümə.
Qüvvət verək söhbətlərə sözümə,
Badələrə o neməti süzək biz.

Son payızın ləzzəti var, dadı var,
Hər ağacın öz rəngi var, adı var.
Bu meşənin sakini var, yadı var,
Qonaq kimi həvəslənək süzək biz.

Durun gedək, zirinc yığaq, şənlənək,
Yemişan dərək, yeyək, gülək, əylənək.
Xəzəllikdə gəzə-gəzə teylənək,
Sonra gəlib samovardan süzək biz.

Çox xoş olur dostlar deyib-gülləndə,
Ötən günün dəyərini bilində.
Qəm-qüssəni könüllərdən siləndə,
Gözəl günün şərəfinə süzək biz.

## Yaz gəlir

Çəkilib dağların qarı qalmayıb,
Bəzənib bənövşə çölə yaz gəlir.
Qaranquş qayıdıb yuvaya dönüb,
Göyərib çəmənlər, elə yaz gəlir.

Veribdi səs-səsə bülbüllər oxur,
Kolların içində yuvasın toxur.
Təbiət gözəllik gül-çiçək qoxur,
İlıq havalarla belə yaz gəlir.

Saralır bağçada zoğal çiçəyi,
Badamın çəhrayı gözəl ləçəyi.
Bir gözəl ətirdi alça çiçəyi,
Təravət gətirən yelə yaz gəlir.

Çəmənə bənzəyir çöldə sünbüllər,
Çölləri bəzəyir ətirli güllər.
Nəğmələr söyləyir sevgili dillər,
Daranan saçlara, telə yaz gəlir.

Buludlar yağışı toz kimi səpir,
Torpaqdan buğlanır bir gözəl ətir.
Ağaclar olubdu çöllərdə çətir,
Yağışın suyunda gölə yaz gəlir.

Yoxdu çoban üçün bu yazın tayı,
Çoxalıb sürüdə quzunun sayı.
Yovşanlı çöllərdə verilən payı,
Yayda sayacaqlar dölə yaz gəlir.

Güllər naxış salıb dərəyə-düzə,
Lalələr qızarır xoş gəlir gözə.
Günəşin istisi güc verir bizə,
Sevinir dünyamız çölə yaz gəlir.

## Dağlar

Əzəmətin gəl-gəl deyir uzaqdan,
Qüdrətin görünür üzündə, dağlar.
Adında ucalıq Yaradan-Haqdan,
Müqəddəs məna var özündə, dağlar.

Mən vurğunam bu dağların başına,
Torpağına, qayasına, daşına.
Milyon illik duruşuna, yaşına,
Gör nələr qaynayıb közündə, dağlar.

Karvanlar yol alıb sinəndən keçib,
Qoşunlar yurd salıb meydanlar seçib.
Ərənlər döyüşüb canından keçib,
Tarixlər yazılıb düzündə, dağlar.

Bir bəzəksən bu çöllərə, düzlərə,
Qartalların qürur verir bizlərə.
Qarlı qışda qar da çıxır dizlərə,
Ovçular yeriyir izində, dağlar.

Yaz gələndə gül-çiçəyin can alır,
Yay olanda hamı sənə yan alır.
Payızında şöhrətindən şan alır,
Şairlər vəsf edir sözündə, dağlar.

Qoca dağlar sıralanıb, düzülüb,
Neçə yerdə aralanıb, üzülüb.
Sel-suların zirvələrdən süzülüb,
İllərlə iz salıb üzündə, dağlar.

Zirvələrin buludlardan nəm çəkir,
Xoş havada xumarlanır dəm çəkir.
Hərdən olur keçmişindən qəm çəkir,
Ağlarsan bulağın gözündə, dağlar.

## Yayda

Gecəsi gözəldi gündüzü kimi,
Ayın görüşünə gələsən yayda.
Gecələr qısalır yuxumuz kimi,
Səhərin şehini silәsən yayda.

Bağça-bağlar quş səsinə qarışar,
Qaratoyuq, sarıköynək yarışar.
Tüstüləyər samovar da alışar,
Gününə gözəllik diləsən yayda.

Sərin olur dağ yerinin havası,
Bir gözəldi bulaqların səfası.
Gəl-gəl deyir meşələrin vəfası,
Kölgədə uyuyub "öləsən" yayda.

Günəşin istisi duyulur yaman,
Çayların suyu da isinib tamam.
O ılıq sularda üzdüyün zaman,
Aldığın ləzzətə kölәsən yayda.

Gəzəsən torpaqda gün ayaqyalın,
Gün dönən zamanda kürəyi yalın.
Çəkəsən üstünə qumluğu qalın,
Gününü dənizlə bölәsən yayda.

Axşamı gözəldi hər bir ayında,
Dəniz qırağında, o Kür çayında.
Həftələr xoş keçir günün sayında,
Səhərdən-axşama gələsən yayda.

Yayın gözəlliyi dənizdi, çaydı,
Dağların bulağı ciyərə paydı.
Bir günün ləzzəti bir ömrə taydı.
Yaşayıb dəyərin biləsən yayda.

**Şərq.- 2023- cü il.- 4 mart.- S. 7.**